**https://doi.org/10.58225/tim.2026-1-479-484**

**M.L.Əliyeva**
***baş müəllim, Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ***
***ORCİD 0000-0002-3608-4352***
***metanet.eliyeva.0067@mail.ru***
**Q.N.Kamranlı**
***magistrant,Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ***
***qayakamranliooo@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 31.01.2026*
*The article was received by editorial board on 31.01.2026*
*Статья принята к печати 31.01.2026*

# İNFRASTRUKTUR ŞİRKƏTLƏRİNDƏ STRUKTURUN YENİDƏN QURULMASI ƏSASINDA DAXİLİ İNVESTİSİYA İMKANLARININ GENİŞLƏNDİRİLMƏSİ YOLLARI

**Xülasə**

*Məqalədə infrastruktur şirkətlərində strukturun yenidən qurulması əsasında daxili investisiya imkanlarının genişləndirilməsi isyiqamətlərindən bəhs olunur. İnfrastruktur sahələrinə investisiyaların cəlb edilməsi üçün restrukturizasiya tədbirlərinin həyata keçirilməsi böyük əhəmiyyətə malikdir. Müasir dünya təcrübəsində infrastruktura sferasında fəaliyyət göstərən şirkətlərin restrukturizasiyası bu sahədə inkişafa əngəlləyən amillərin aradan qaldırılması, bazar təsərrüfatçılığı sistemində həmin şirkətlərin səmərəli fəaliyyət göstərməsinin başlıca şərtləri olması məqalədə geniş araşdırılmışdır.*

*Bütün bunlarla yanaşı məqalədə infrastruktur şirkətlərinin restrukturizasiyasının xüsusiyyətləri, infrastruktur sahələrində şirkətlərin restrukturizasiyasının zəruriliyini şərtləndirən əsas amillər, şirkətlərin restrukturizasiyanın əsas mərhələləri, restrukturizasiya tədbirlərinin həyata keçirilməsində daxili investisiyaların əhəmiyyəti kimi mühüm məsələlərə baxılmışdır.*

***Açar sözlər:*** *istehsal infrastrukturu, investisiya, restrukturizasiya, reinjinirinq, strateji restrukturizasiya,marketinq strategiyası, investisiya qoyuluşlarının rentabelliyi, areal, texnologiyaların təkmilləşdirilməsi.*

## GİRİŞ

İnfrastruktur sahələrində struktur islahatlar daxili investisiya resurslarının səfərbər edilməsinə,maliyyə axınlarının səmərəli istiqamətləndirilməsinə və və iqtisadi aktivliyin artmasına şərait yaradır (6).

İstehsal infrastrukturu şirkətlərinin fəaliyyətində iqtisadi səmərəliliyin təmin edilməsi, rəqabət gücünün artırılması, müasir menecment üsullarının tətbiqi əsasında daxili mənbələr hesabına investisiya qoyuluşu imkanlarının artırılması onların restrukturizasiyası ilə bağlıdır.Daxili investisiya imkanlarının genişləndirilməsi institusional mühitin təkmilləşdirilməsi və infrastrukturun modernləşdirilməsi ilə birbaşa bağlıdır. Struktur yenilənməsi investisiya risklərini azaldaraq yerli kapitalın real sektora yönəlməsini stimullaşdırır (3). İstehsal infrastrukturu sahəsində restrukturizasiya şirkətlərdə idarəetmənin əlverişli təşkilati-hüquqi formalarının tətbiqinin təmin edilməsi, infrastruktur sferasında dövlətsizləşdirməyə və bu sferanın inkişafı ilə bağlı məsələlərin həllində özəl sektorun cəlb edilməsinə əlverişli şərait yaradır.

Qeyd edilənlərlə bağlı, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2019-2023-cü illər) infrastruktur və kommunal xidmətlərinin inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətlərinə məhz həmin sahələrə investisiyaların cəlb edilməsi üçün restrukturizasiya tədbirlərinin həyata keçirilməsi də aid edilmişdir. Dövlət Proqramına uyğun olaraq kommunal xidmətləri sahəsinə investisiyaların cəlb edilməsi məqsədilə restrukturizasiya tədbirlərinin sürətləndirilməsi, habelə su sektoruna investisiyaların cəlb edilməsi məqsədilə restrukturizsiya tədbirlərinin davam etdirilməsi təmin olunmalıdır.

Ümumiyyətlə, restrukturizsiya dedikdə təşkilatın idarəetmə,maliyyə və ya strukturunun yenidən qurulması başa düşülür. Müasir dünya təcrübəsində infrastruktura sferasında fəaliyyət göstərən şirkətlərin restrukturizasiyası bu sahədə inkişafa əngəl yaradan əsas amillərin aradan qaldırılması, bazar təsərrüfatçılığı sistemində həmin şirkətlərin səmərəli fəaliyyət göstərməsinin başlıca şərtlərindəndir. Onun müvafiq tənzimləmə tədbirlərilə birlikdə özəlləşdirmədən əvvəl aparılması zəruri hesab edilir.

**İnfrastruktur şirkətlərinin restrukturizasiyasının xüsusiyyətləri**

İstehsal infrastrukturu sferasında restrukturizasiyanın nisbətən mürəkkəb və coxtərəfli tədbirləri əhatə etməsini nəzərə alaraq konkret araşdırılmalardan öncə, məsələnin əsas metodoloji aspektlərinə nəzər yetirilməsi maraq kəsb etməyə bilməz.

Restrukturizasiya özünün ümumi mahiyyəti etibarilə istehsalın səmərəliliyi və məhsulun keyfiyyətinin yüksəldilməsi və bununla da müvafiq bazarlarda şirkətin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə istehsal edilən məhsulun quruluşu, tətbiq edilən texnologiyanın, aktivlərin və öhdəliklərin strukturunun, idarəetmənin təşkili və metodlarının dəyişdirilməsi vasitəsilə şirkətin fəaliyyətinin müxtəlif tərəflərinin yenidən qurulmasından ibarətdir. Restrukturizasiyanın gedişində adətən şirkətin fəaliyyətinin əsaslı surətdə yenidən qurulması baş verir. Bu, özünü istehsal edilən məhsulun çeşidlərinin yeniləşdirilməsi, istehsalın həcminin artırılması, texniki bazanın və texnologiyaların təkmilləşdirilməsi, istehsal potensialından daha yaxşı istifadə edilməsi, idarəetmə sistemini yaxşılaşdırılmasında ehtiva edir..

Şirkətlərin restrukturizasiyası təkcə istehsala müdaxiləsilə deyil, həm də kapitalın və mülkiyyətin strukturunda da dəyişiklikləri əhatə edir. Bu baxımdan restrukturizasiya iqtisadi, hüquqi və təşkilati-idarəetmə aspektlərinə malikdir. Müəssisənin restrukturizasiyası onun biznes dəyərini artırmağa, istehsalın səmərəliliyini yüksəltməyə, aktivləridən istifadənin xarakterinin dəyişdirilməsinə də imkan verir.

**İnfrastruktur sahələrində şirkətlərin restrukturizasiyasının zəruriliyini şərtləndirən əsas amillər**

İnfrastruktur sferasında şırkətlərin restrukturizasiyasını həyata keçirilməsini şərtləndirən əsas səbəb geniş mənada onların fəaliyyətinin səmərəliliyinin aşağı olması, bazarın dəyişən tələblərinə adekvat cavab verə bilməməsidir. Belə vəziyyətin nəticəsi isə maliyyə göstəricilərinin əlverişsizliyi, xüsusi dövriyyə vəsaitlərinin xroniki çatışmazlığı, debitor və kreditor öhdəliklərinin yüksək səviyyəsində əks olunur.

İnfrastruktur sahələrində şirkətlərin restrukturizasiyasının zəruriliyini şərtləndirən əsas problemlərə aşağıdakıları aid etmək olar:

- fəaliyyətin dinamizmi və səmərəliliyini təmin etməyən təşkilati strukturun mövcudluğu;
- ucot və nəzarət sisteminin qeyri-mükəmməl olması və bunun nəticəsində fəaliyyətin səmərəliliyinin müəyyən edilməsi baxımından şəffaflığı təmin etməyin mümkün olmaması;
- yuxarı idarəetmə vəsiləsində səlahiyyət və məsuliyyətlərin əsassız olaraq təmərküzləşdirilməsi;
- əmlak kompleksinin strukturnun səmərəsizliyi və bunun nəticəsində şirkətin rəqabət qabiliyyətinin aşağı düşməsi.

Hər bir konkret şəraitdə restrukturizasiya variantının seçilməsi zamanı şırkətin məqsəd və vəzifələri ilə yanaşı, əmək kollektivi üzvlərinin, kreditorların və bütünlükdə iqtisadiyyatın mənafeləri nəzərə alınmalıdır. Restrukturizasiyanın həyata keçirilməsi barədə qərar dərin iqtisadi təhlil, və infrastruktur xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş yeni marketinq strategiyası əsasında qəbul edilməlidir.

Şırkətlərin restrukturizsiyasının həlledici məqsədlərindən biri rəqabət qabiliyyətinin yüksəldilməsidir. Eyni zamanda, restrukturizsaiya kompleksli proses olduğu üçün onun həyata keçirilməsi zamanı aşağıdakı konkret vəzifələr meydana gəlir:

- sahənin inkişafının strateji məqsədlərinə uyğun olaraq onun təşkilati, funksional quruluşu və idarəetmə sisteminin optimallaşdırılması;
- fəaliyyət göstəricilərinin yaxşılaşdırılması məqsədilə kommersiya və maliyyə fəaliyyətinin reinjiniringin həyata keçirilməsi;
- şirkətin resurslarının səmərəli istifadəsi, heyətin tərkibinin kəmiyyət və keyfiyyət baxımından optimallaşdırılması.

Müasir şəraitdə əsaslı islahatların gedişində istehsal infrastrukturu sahələrində fəaliyyət göstərən şirkətlərdə strateji restrukturizasiyanın aparılmasına zərurət yaranır. Strateji restrukturizsiya şirkətin investorlar üçün cəlbediciliyinin yüksəldilməsi, inkişaf məqsədləri üçün xarici maliyyələşdirmələrin cəlb edilməsi imkanlarının genişləndirilməsinə yönəldilir. Belə restrukturizasiyanın həyata keçirilməsi uzunmüddətli məqsədlərin reallaşdırılmasına xidmət edir. Strateji restrukturizasiyanın uğurla həyata keçirilməsi nəticəsində şirkətin rəqabətqabiliy-yətliliyi,onun xüsusi kapitalının bazar dəyəri yüksəlir.

**Şirkətlərin restrukturizasiyanın əsas mərhələləri**

Layihələrin idarəetmə metodunun əsas prinsiplərinə uyğun olaraq şirkətlərin restrukturizasiyanın bir neçə mərhələsini ayırmaq olar.

Birinci mərhələdə restrukturizasiyanın məqsədləri müəyyən edilir. Bu mərhələdə şirkətin cari fəaliyyətində nələrin qeyri-qənaətbəxş olduğu və struktur dəyişiklikləri nəticəsində nələrə nail olunmasının nəzərdə tutulduğu müəyyən eidlməlidir.Məqsədlərin və vəzifələrin düzgün müəyyən edilməsi restrukturizasiya proqramının sonrakı uğurlu taleyinin təmin edilməsinin həlledici şərtlərindən biridir.

İkinci mərhələ şırkətin diaqnostikasının aparılmasını əhatə edir. Diaqnostika şirkətin problemləri, onun zəif və güclü tərəflərinin müəyyən edilməsi, inkişaf perspektivləti və gələcək investisiya qoyuluşlarının rentabelliyinin aydınlaşdırılması üçün aparılır. Diaqnostika həyata keçirilərkən bir qayda olaraq şırkərin əməli fəaliyyəti, bazarın, investisiya cəlbediciliyinin təhlili aparılır, habelə maliyyə vəziyyəti, rəhbərliyin strategiyası və fəaliyyəti öyrənilir.

Üçüncü mərhələdə restrukturizasiya strategiyası və proqramı hazırlanır. Bu mərhələdə diaqnostika əsasında əldə edilmiş məlumatlar üzrə şirkətin inkişafının bir neçə alternativ variantı hazırlanır. Hər bir variant üçün restrukturizasiya metodları müəyyən edilir, proqnoz göstəriciləri hesablanılır, mümkün risklər və lazım olacaq resursların həcmi dəyərləndirilir. Müxtəlif meyarlar əsasında qeyd edilən alternativlərin qiymətləndirilməsi aparılır və seçim edilir. Həmin seçimə uyğun olaraq restrukturizasiya proqramı hazırlanır. Bu halda şirkətin strateji məqsədləri dəqiqləşdirilir, resurs məhdudiyyətləri nəzərə alınmaqla məqsəd parametrləri detallaşdırılır.

Dördüncü mərhələdə restrukturizasiya hazırlanmış proqrama uyğun surətdə həyata keçirilir. Bu məqsədlə mütəxəssislər komandası formalaşdırılır. Dördüncü mərhələnin gedişində məqsəd göstəriciləri dəqiqləşdirilir.

Beşinci, mərhələdə restrukturizasiya proqramının nəticələrinin təhlili aparılır. Bu mərhələdə proqramın yerinə yetirilməsi üçün məsul olan komanda məqsəd göstəricilərinin icrasına nəzarəti həyata keçirir, alınmış nəticələri təhlil edir və görülmüş işlər barədə yekun hesabatı hazırlayır.

İstehsal infrastrukturu sferasında fəaliyyət göstərən şirkətlərin restrukturizasiyasının aparılması zamanı risklərin proqnozlaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, infrastruktur şirkətlərinin yenidən qurulması iri miqyaslı və böyük həcmdə vaxt, maliyyə və insan resursları tələb edən tədbirdir. Belə vəziyyət iqtisadi, sosial, hüquqi risklərin yaranmasını şərtləndirir.

Restrukturizasiya şirkətlərin fəaliyyətinin həlledici sahələrinə toxunur. Bununla əlaqədar bu yönümdə tədbirlərin praktiki reallaşdırılmasına başlamadan öncə maddi və maliyyə axınlarında baş verəcək dəyişikliklərin nəticələrinin, habelə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin geniş təhlilinin aparılması zəruridir.

Postsosialist keçid dövrü digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da dövlət müəssisələrinin, o cümlədən istehsal infrastrukturu sektorunda genişmiqyaslı restrukturizasiyasının həyata keçirilməsi ilə səciyyələnmişdir. Həmin prosesin başlıca strateji yönümü şirkətlərin bazar təsərrüfatçılığı sisteminə adekvat strukturlu və səmərəli fəaliyyət göstərən təsərrüfat subyektlərinə çevrilməsindən ibarət olmuşdur.

Ölkəmizdə iqtisadi islahatların dərinləşdirilməsi infrastruktur şirkətlərinin restrukturizasiyanın yeni istiqamətlər üzrə davam etdirilməsi zəruriliyini irəli sürür. Hava nəqliyyatı, dəmir yolu və su nəqliyyatı sektorlarında, habelə elektrik enerjisi, qaz, istilik, su təchizatı sistemlərində mövcud institusional strukturun bu sahələrdə yüksək standartlara uyğun xidmət göstərilməsinə zəruri imkanlar yaradılması və eyni zamanda həmin şirkətlərin səmərəli fəaliyyətinin təmin edilməsi tələblərinə uyğunlaşdırılmasına ehtiyac vardır.

**Restrukturizasiya tədbirlərinin həyata keçirilməsində daxili investisiyaların əhəmiyyəti**

İnfrastruktur sferasında fəaliyyət göstərən dövlət şirkətlərinin mövcud strukturu şəraitində onlarda modernləşdirmə tədbirlərinin həyata keçirilməsi üçün zəruri olan daxili investisiya potensialının yaradılmasına təminat formalaşdırılması sahəsində ciddi çətinliklər yaranır. Ə.Musayev qeyd edir ki,struktur dəyişiklikləri daxili investisiya mənbələrinin qorunması və onların uzunmüddətli inkişaf məqsədlərinə yönəldilməsini təmin edir (4).

Eyni zamanda mövcud struktur həmin vəziyyətin aradan qaldırılmasına kifayət qədər yüksək stimullar təmin etmir. Belə vəziyyətdə isə şirkətlərin daxili investisiya potensialının yüksəldilməsi, habelə investisiya qoyuluşları məqsədləri üçün ayrılan vəsaitlərdən səmərəli istifadə edilməsi ilə bağlı məsələlərin həllində zəruri irəliləyişləri həyata keçirmək çətinləşir. Ona görə də dövlət əvvəla investisiya prosesində birbaşa iştirak etməkdən kənarlaşa bilməz.İkincisi,dövlət investisiyafəaliyyətinin fəallaşdırılması və investisiya qoyuluşundan istifadənin səmərəliliyinin yüksəldilməsi üçün bütün zəruri iqtisadi şərait yaratmağa borcludur (2).

Göstərilənlərlə əlaqədar olaraq, infrastruktur sahələrində fəaliyyət göstərən dövlət şirkətlərində təşkilati-hüquqi, funksional və maliyyə restrukturizasiyası tədbirlərinin həyata keçirilməsi zəruriliyi güclənir. Bunları nəzərə alaraq, restrukturizasiyanın üçüncü mərhələsində infrastruktur sahələrində xidmət göstərilməsində səmərəliliyin təmin ediləsi məqsədilə müvafiq dövlət şirkətlərinin vertikal surətdə bir-biri ilə bağlı olan funksiyalar yerinə yetirən vəsilələrinin ayrılması məsələsinin həlli vacibdir.

Nəzərdə tutulan restrukturizasiya tədbirləri son nəticədə infrastruktur sahələrində rəqabətin inkişafı və özəl sektorun iştirakının təmin edilməsi əsasında istehlakçılara göstərilən xidmətlərin həcminin artırılması və keyfiyyətinin yaxşılaşdırılmasına, şirkətlərin fəaliyyətində maliyyə şəffaflığının və səmərəliliyin yüksəldilməsinə yönəldilmişdir.

İstehsal infrastrukturu sistemində həyata keçirilən restrukturizasiya tədbirlərinin konkret istiqamətləri onun hər bir sahəsi üzrə ayrılıqda müəyyən edilməlidir. Bununla əlaqədar sahələr üzrə araşdırmalar aparılmalıdır.

Nəqliyyat infrastrukturu sferasında restrukturizasiya ilə bağlı konkret tədbirləri həyata keçirərkən müvafiq dünya təcrübəsinə də nəzər yetirmək lazımdır. Bununla əlaqədar qeyd etmək lazımdır ki, postsosialist ölkələrin əksəriyyətində  hava, su və dəmir yolunda daşımaları həyata keçirən müəssisələrdə bütün hallarda özəlləşdirmə qabağı restrukturizasiya tədbirləri həyata keçirilmişdir. Bu tədbirlər daha çox  şirkətlərin  ayrılması proseslərini əhatə etmişdir. Şərqi Avropa, Baltikyanı və MDB ölkələrində müvafiq sahələrdə özəlləşdirmə gəmiçilik şirkətlərinin limanlardan, aviasiya daşımaları şirkətlərinin aeroportlardan, dəmir yolunda daşımaları həyata keçirən şirkətlərin dəmir yolu infrastrukturundan təşkilati baxımdan ayrılması (paralel olaraq sərnişin və yük daşıma şirkətlərinin ayrılması), habelə horizontal restrukturizasiya tədbirləri nəticəsində regional nəqliyyat şirkətləirnin formalaşdırılması əsasında aparılmışdır.

Həmin müəssisələr səhmdar cəmiyyətlərə çevrilmişlər və onların səhmlərinin qəbul edilmiş müvafiq qanunvericiliyə uyğun satışı həyata keçirilmişdir. Göstərilən müəssisələrin

strateji əhəmiyyətliliyi nəzərə alınmaqla, ilkin mərhələdə onların səhmlərinin nəzarət zərfi və ya məhdudlaşdırıcı hissəsi dövlət mülkiyyətində saxlanılmışdır.

Bununla əlaqədar nəzərə almaq lazımdır ki, dünyanın müxtəlif ölkələrində elektrik təchizatı sistemində aparılan islahatların gedişində aşağıdakı struktur modelləri formalaşmışdır:

- Tək alıcı modeli. Bu halda vahid agentlik bir-biri ilə rəqabət şəraitində fəaliyyət göstərən istehsalçıların hasil etdikləri elektrik enerjisini satın alır, enerjinin ötürülməsi (transmissiyası) sahəsində inhisar mövqeyinə malik olur və digər təchizatçılarla rəqabət aparmadan enerjini paylayıcılara və iri enerji istehlakçılarına satır.
- Topdansatış rəqabəti modeli. Bu halda çoxsaylı paylayıcılar elektrik enerjisini rəqabət şəraitində fəaliyyət göstərən istehsalçılardan satın alırlar, enerjinin özlərinin xidmət zonasına (arealına) çatdırılması üçün ayrı-seçkiliyə yol verilmədən qoşulmaya açıq olan ötürücü (transmissiya) şəbəkəsindən istifadə edirlər və özlərini xidmət zonasında (arealında) istehlakçılara elektrik enerjisi satışında inhisarçı mövqe tuturlar.
- Pərakəndə satış rəqabəti modeli. Bu halda elektrik enerjisinin istehlakçıları rəqabət şəraitində fəaliyyət göstərən istehsalçılara maneəsiz çıxışa və bu zaman müstəqil seçim imkanına malik olurlar; ötürücü və paylayıcı şəbəkələr istehlakçılarla maneəsiz, ayrı-seçkiliyə yol vermədən xidmət müqaviləsi bağlamaq və icra etmək şəraitində fəaliyyət göstərirlər.

Elektrik bazarının konkret struktur modelinin seçilməsi zamanı hər bir modelin tətbiqi ilə bağlı tələb olunan əsas şərtləri və ölkənin enerji təchizatı sisteminin konkret xüsusiyyətlərini nəzərə almaq lazım gəlir. Eyni zamanda, islahatların dərinləşdirilməsi gedişində ardıcıl olaraq göstərilən modellərin birindən digərinə keçilməsi də məqsədəuyğundur.

Azərbaycan Respublikasında da ilkin mərhələdə elektrik təchizatı sisteminin mövcud strukturunun xüsusiyyətlərini nəzərə alaraq «tək alıcı» modeli tətbiq edilə bilər. Sonrakı mərhələlərdə, müvafiq zəminlər formalaşdıqca (müstəqil istehsalçıların sayının artması, ötürücü şəbəkənin etibarlılıq dərəcəsinin yüksəldilməsi, sistemin enerjiyə tələbatın artmasına uyğun dinamik inkişaf imkanlarına malik olması, effektiv və çevik tənzimləmə mexanizmlərinin qurulması və s.) topdansatış rəqabəti modelinin, enerjinin son istehlakçılara satıldığı qiymətlərin liberallaşdırıldığı halda isə pərakəndə rəqabət modelinin tətbiqi məsələləri həll edilə bilər. Regionlarda infrastrukturun restrukturizasiyası yerli investisiya potensialının reallaşdırılmasında mühüm rol oynayır.Bu proses iqtisadi iqtisadi fəallığın artmasına və daxili maliyyə resurslarının bölgələr üzrə balanslı paylanmasına imkan yaradır (5).

İstehsal infrastrukturu sistemində restrukturizasiyanın digər yönümünü su təchizatı sistemində zəruri struktur islahatlarının aparılması təşkil edir. "Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2019-2023-cü illər) müəyyən edilmiş vəzifənin, yəni dünya standartlarına uyğun davamlı su təchizatının təmin olunmasında bu sistemdə restrukturizasiyanın miqyaslarının genişləndirilməsi əsasında cəlb edilən investisiya-ların həcminin artırılması mühüm rola malikdir.

**NƏTİCƏ**

Aparılan araşdırmalar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. İnfrastrukturu şirkətlərinin fəaliyyətində iqtisadi səmərəliliyin təmin edilməsi, rəqabət gücünün artırılması, müasir menecment üsullarının tətbiqi əsasında daxili mənbələr hesabına investisiya qoyuluşu imkanlarının artırılması onların restrukturizasiyası ilə bağlıdır.

2. Restrukturizsiya təşkilatın idarəetmə,maliyyə və ya strukturunun yenidən qurulmasıdır. Restrukturizasiya mahiyyəti etibarilə istehsalın səmərəliliyi və məhsulun keyfiyyətinin yüksəldilməsi və buna müvafiq bazarlarda şirkətin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə istehsal edilən məhsulun quruluşu, tətbiq edilən texnologiya, aktivlərin və öhdəliklərin quruluşu, idarəetmənin təşkili və metodlarının dəyişdirilməsi vasitəsilə şirkətin fəaliyyətinin müxtəlif tərəflərinin yenidən qurulmasıdır.

3. Restrukturizasiya iqtisadi, hüquqi və təşkilati-idarəetmə aspektlərinə malik olub müəssisənin biznes dəyərini artırılması, istehsalın səmərəliliyinin yüksəldilməsi, aktivləridən istifadənin xarakterinin dəyişdirilməsini şərtləndirir.

4.Şirkətlərin restrukturizsiyasının əsas məqsədlərindən biri olan rəqabət qabiliy-yətinin yüksəldilməsində sahənin inkişafının strateji məqsədlərinə uyğun onun təş-kilati, funksional quruluşu və idarəetmə sisteminin optimallaşdırılması,

fəaliyyət göstəricilərinin yaxşılaşdırılması məqsədilə kommersiya və maliyyə fəaliyyətinin reinjinirinqin həyata keçirilməsi, şirkətin resurslarının səmərəli istifadəsi, heyətin tərkibinin kəmiyyət və keyfiyyət baxımından optimal-laşdırılması kimi konkret vəzifələr yerinə yetirilmələdir.

5. Ölkəmizdə iqtisadi islahatların yerinə yetirilməsi kontekstində infrastruktur şirkətlərinin restrukturizasiyanın prioritet istiqamətlər üzrə davam etdirilməsi obyektiv zərurətdən qaynaqlanır. Belə ki, hava nəqliyyatı, dəmir yolu, su nəqliyyatı sektorlarında, habelə elektrik enerjisi, qaz, istilik, su təchizatı sistemlərində mövcud institusional strukturun yüksək standartlara uyğun xidmət göstərilməsinə zəruri imkanlar yaradılması və eyni zamanda həmin şirkətlərin səmərəli fəaliyyətinin təmin edilməsi tələblərinə uyğunlaşdırılması günümüzün aktual problemləri sırasındadır.

6. Dünya standartlarına uyğun davamlı su təchizatının təmin olunmasında restrukturizasiyanın miqyasının genişləndirilməsi üçün cəlb edilən investisiyaların həcminin artırılmasında dövlət-özəı tərəfdaşlığının rolunun artırılması böyük əhəmiyyətə malikdir.


***İstifadə edilmiş ədəbiyyat:***

**1.** İlham Şaban. (2020). “Enerji sektoru və iqtisadi inkişaf”. – Bakı.

**2.** Məmmədov M., Məmmədov İ., Əliyev Ə., Kazımov N. (2025). “İnvestisiya menecmenti“, Bakı.

**3.** Məmmədov E. (2018). “Azərbaycanın iqtisadi inkişaf modeli”.

**4.** Musayev Ə. (2016). “Milli iqtisadi təhlükəsizlik və davamlı inkişaf”.

**5.** Hüseynov R. (2019). “Regional inkişaf və infrastruktur siyasəti”. - Bakı.

**6**. Səmədzadə Z. (2012). “Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər”.



**M.L.Aliyeva**

*senior lecturer, Azerbaijan University of Architecture and Construction PLE*

*ORCID 0000-0002-3608-4352*

**Q.N.Kamranli**

*master student, Azerbaijan University of Architecture and Construction PLE*


## Ways to expand domestic investment opportunities based on structural restructuring in infrastructure companies


**Abstract**

*The article discusses the directions for expanding internal investment opportunities based on restructuring in infrastructure companies.*

*The implementation of restructuring measures is of great importance for attracting investments in infrastructure sectors. The article has extensively examined the fact that in modern world practice, the restructuring of companies operating in the infrastructure sector is the elimination of factors hindering development in this area and the main conditions for the effective operation of these companies in the market economy system.*

*In addition to all this, the article examines important issues such as the characteristics of the restructuring of infrastructure companies, the main factors determining the necessity of restructuring companies in the infrastructure sector, the main stages of company restructuring, and the importance of internal investments in implementing restructuring measures.*



***Keywords:*** *production infrastructure, investment, restructuring, reengineering, strategic restructuring, marketing strategy, return on investment, area, technology improvement.*